AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

10 (62) 14 iyul 2016-cı il

İctimai-siyasi qəzet

# İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dünyada təhlükələrin artdığını, iqtisadi böhranın daha da dərinləşdiyini və bütün ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirdi. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı aprel ayında təmas xəttində Ermənistanın törətdiyi təxribatın qarşısının ordumuz tərəfindən alındığını, əks-hücum əməliyyatı nəticəsində 2 min hektar ərazinin işğaldan azad edildiyini diqqətə çatdırdı. "Münaqişə tezliklə həllini tapmalı, status-kvo dəyişilməlidir", - deyən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğuladı.

"Münaqişənin həllinin yeganə mümkün variantı mərhələli həll variantıdır", - deyən dövlətimizin başçısı buna nail olmaq üçün həmsədr ölkələrin və ATƏT-in Ermənistana ciddi təzyiq göstərmələrinin vacibliyini diqqətə çatdırdı.

Bu ilin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu, 10-dan çox dövlət və hökumət başçısının Azərbaycana səfərə gəldiyini, özünün də xaricə səfərlərinin beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini deyən Prezident İlham Əliyev çıxışında iqtisadi inkişaf proseslərindən də danışdı, cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu dedi. Bildirdi ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin birinci yarısında 78 min daimi iş yeri açılıb, sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb. "2016-cı il tarixdə dərin islahatlar dövrü kimi qalacaq", - deyən dövlətimizin başçısı strateji enerji və nəqliyyat layihələrinin uğurla icrası istiqamətində tədbirlərin davam etdirildiyini bildirdi.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, kənd təsərrüfatı naziri Heydər Əsədov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı ixracyönümlü iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta sahibkarlığın gücləndirilməsi ilə bağlı tapşırıqlarını verdi. Prezident İlham Əliyev dedi ki, bu il ölkədə dərman istehsalına başlanması, sənaye mərkəzlərinin yaradılması istiqamətində, həmçinin Mingəçevirdə yüngül sənaye kompleksinin təməlinin qoyulması, hər bir rayonun sənaye potensialının inkişaf etdirilməsi ilə bağlı işlər davam etdirilir.

Azərbaycanda xalçaçılıq sənayesinin, baramaçılığın, pambıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyinin bundan sonra da davam etdirilməsi, zəruri ərzaq məhsulları ilə təminatın, ət və süd məhsullarına olan tələbatın ödənilməsi, meliorativ tədbirlərin davam etdirilməsi, torpaqlardan səmərəli istifadə olunması, o cümlədən turizm sənayesinin yaradılması istiqamətində görülən tədbirlərin davamlı olması ilə bağlı tapşırıqlarını verən dövlətimizin başçısı son illərdə Bakıda keçirilən beynəlxalq tədbirlərin, həmçinin Formula-1 Avropa Qran-prisinin ölkəmizdə turizmin inkişafına ciddi dəstək verdiyini bildirdi. Bundan əlavə, Prezident İlham Əliyev "ASAN xidmət"in fəaliyyətinə toxunaraq artıq bu quruma yarandığı vaxtdan indiyə qədər 10 milyon müraciət edildiyini, ölkədə 9 "ASAN xidmət" mərkəzinin fəaliyyət göstərdiyini, bu il isə Masallı və Qəbələdə yeni mərkəzlərin yaradılacağını diqqətə çatdırdı. Əsassız yoxlamaların azaldılması ilə bağlı verdiyi tapşırıqların müvəffəqiyyətlə icra olunduğunu deyən Prezident İlham Əliyev 2016-cı ilin ikinci yarısının da uğurlu olacağına əminliyini ifadə etdi.

# İlham Əliyev Varşavada NATO-nun Sammitinin açılış mərasimində iştirak edib



Polşanın paytaxtı Varşavada NATO-nun Sammiti işə başlayıb.

Prezident İlham Əliyev Sammitin açılışında iştirak edib.

NATO-nun Varşava Sammitində Alyansa üzv olan və İSAF proqramına qoşulan tərəfdaş ölkələrdən, BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlardan nümayəndələr iştirak edirlər.

NATO-nun baş katibi Yens Stoltenberq və Polşa Prezidenti Andjey Duda Azərbaycan Prezidenti İlham Əliyevi, həmçinin digər dövlət və hökumət başçılarını salamladılar.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Sonra NATO-nun Sammiti işə başladı.

Alyansın baş katibi Yens Stoltenberq iştirakçı ölkələrin dövlət və hökumət nümayəndələrini, həmçinin beynəlxalq təşkilatların rəsmilərini salamlayaraq, Zirvə görüşünün uğurla keçəcəyinə əminliyini ifadə etdi.

NATO-nun baş katibi Yens Stoltenberq ötən Zirvə görüşündən sonra görülən işlər barədə məlumat verdi. Bildirdi ki, Estoniya, Latviya və Litvada NATO-nun fəaliyyətinin gücləndirilməsi istiqamətində müəyyən işlər görülüb. "Bütün bunlar bizdən xüsusi səy tələb edəcək. Biz düzgün istiqamətdə irəliləyirik və irəliləyəcəyik", - deyən Y.Stoltenberq Sammitə yüksək səviyyədə ev sahibliyi etdiyinə görə Polşa Respublikasına minnətdarlığını çatdırdı.

Polşa Prezidenti Andjey Duda NATO Sammitinin ölkəsində keçirilməsindən məmnunluğunu bildirdi. Qeyd etdi ki, hazırda demokratik dəyərlər təhlükə altındadır və münaqişələr dünyada qeyri-sabitliyin yaranmasına, terrorizm kimi çağırışların üzə çıxmasına xidmət edir. Andjey Duda vurğuladı ki, bu gün xalqlarımız bizdən üzərimizə götürdüyümüz öhdəliklərin yerinə yetirilməsini gözləyir.

AZƏRBAYCAN VETERANI

# Veteranlar onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirirlər

**Azərbaycanda veteranlara diqqət və qayğı siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı ərəfəsində az qala unudulmaqda olan 9 May - Qələbə Gününün yenidən dövlət bayramları sırasına daxil edilməsi, müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlərin görülməsi, o cümlədən onlara dövlət hesabına mənzil və xüsusi nəqliyyat vasitəsinin verilməsi təmin olunub. Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı “Veteranlar haqqında” Qanunda bu diqqət və qayğının hüquqi əsasları müəyyənləşdirilib.**



Əlamətdar gün münasibətilə iyunun 28-də Respublika Veteranlar Təşkilatının rəhbərliyi və üzvləri, müharibə, əmək və Silahlı Qüvvələr veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar, gənclər Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və



qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn veteranlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun da xatirəsi dərin ehtiramla yad olunub, abidəsi önünə əklil qoyulub.

Respublika Veteranlar Təşkilatının inzibati binasında keçirilən tədbirdə bu qurumun sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev bu günün əhəmiyyətindən danışıb. Bildirib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikada bütün sahələrdə olduğu kimi, veteranlar təşkilatının fəaliyyətində də canlanma yaranıb. Qeyd olunub ki, 1987-ci il mayın 6-da Respublika Veteranlar Təşkilatı yaradıldı. Həmin vaxt təşkilata general-mayor Mustafa Nəsirov sədrlik edirdi. Ancaq sonrakı mərhələdə, xüsusilə 1990-cı illərin əvvəllərində ölkədə yaşanan xaos, hərc-mərclik Respublika Veteranlar Təşkilatının fəaliyyətinə də mənfi təsir göstərib.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyəti bərpa olunub, veteranlara münasibət dəyişib, bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılıb. Ulu Öndərin imzaladığı ilk sənədlərdən biri də məhz “Veteranlar haqqında” Qanun olub. Bununla da veteranlara dövlət qayğısı tam bərpa edilib, onlara münasibət yüksək səviyyəyə qaldırılıb.

D.Rzayev vurğulayıb ki, Azərbaycanda veteranlarla



bağlı ardıcıl şəkildə həyata keçirilən dövlət siyasətinin əsası məhz həmin vaxtdan etibarən qoyulub. Bu siyasət sonrakı mərhələdə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilib, veteranlara dövlət qayğısı yeni səviyyəyə qaldırılıb. Bu qayğının ən son nümunəsi kimi Respublika Veteranlar Təşkilatına ayrılan və müasir standartlara cavab verən inzibati binanı, 1941-1945-ci illər İkinci Dünya müharibəsində faşizm üzərində Qələbə münasibətilə ayrılan birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildən-ilə artırılmasını, veteranların mənzil və şəxsi avtomobillə təmin edilməsini, pulsuz müalicə olunmalarını, onlara digər yardımların göstərilməsini qeyd etmək olar. Sədr bu baxımdan Respublika Veteranlar Təşkilatına 500 min manat məbləğində vəsaitin ayrılmasının önəmini xüsusi vurğulayıb, buna görə veteranlar adından dövlətimizin başçısına minnətdarlığını bildirib.

Tədbirdə, eyni zamanda, veteranlar və ictimai təşkilatların nümayəndələri çıxış edib, onlara göstərilən qayğının ilbəil artırılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını çatdırıblar. Çıxış edənlər Azərbaycanda veteran gününün təsis edilməsinin məqsədəuyğun olduğunu bildiriblər.

Sonda ictimai təşkilatların nümayəndələrinə və bir qrup veterana Respublika Veteranlar Təşkilatının yubiley medalları təqdim edilib.



# Heydər Əliyev Fondunun nümayəndələri müharibə və əmək əlilləri üçün pansionatda olublar

**İyulun 3-də Heydər Əliyev Fondunun nümayəndələri ənənəvi olaraq, Bakının Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionatın sakinləri ilə görüşüblər.**

Heydər Əliyev Fondu uşaq evləri və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan şəxslərlə yanaşı, müntəzəm olaraq ahıllarla da görüşür, onların qayğıları ilə maraqlanır.

Ölkəmizdə ahıl insanlara dövlət qayğısı ildən-ilə artır, onların sosial problemlərinə həssas münasibət hər zaman diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə görülən işlərə, həyata keçirilən layihələrə dövlətimizlə yanaşı, Heydər Əliyev Fondu da töhfəsini verir. Bu diqqət və qayğı Bakının Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionatda da açıq-aydın hiss olunur.



Fondun prezidenti Mehriban Əliyevanın və vitse-prezidenti Leyla Əliyevanın mütəmadi buraya baş çəkmələri, bu qəbildən olan insanlarla səmimi söhbət etmələri, onların qayğılarını diqqətdə saxlamaları bunu bir daha sübut edir.

Heydər Əliyev Fondunun nümayəndələrinin pansionata budəfəki gəlişi də bayram əhval-ruhiyyəsi ilə yadda qalıb.

Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri üçün pansionat ötən əsrin 60-cı illərindən fəaliyyət göstərir. 1998-ci ildə ulu öndər Heydər Əliyev bu pansionatda olub, veteranlarla görüşüb. 2013-cü ildə bu pansionata yeni həyat verilib. Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə pansionatın yeni korpusunun açılışı olub. İndi burada 225 nəfər yaşayır. Onların özlərini evdəki kimi rahat hiss etmələri üçün pansionatda bütün lazımi şərait yaradılıb. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə yaşlı insanlarla, müharibə veteranları ilə görüşlər keçirilir, onların sağlamlığı diqqətdə saxlanılır, bu kateqoriyadan olan insanlar üçün müxtəlif tədbirlər təşkil olunur. Bu tədbirlər sırasında qocaların səhiyyə ocaqlarında müayinə edilməsini, onlar üçün konsertlər və bayram şənliklərinin keçirilməsini qeyd etmək olar.

İyulun 3-də keçirilən tədbir bir-birindən şən musiqi nömrələri ilə və şux rəqslərlə davam edib. Bu isə pansionat sakinlərinin bayram əhval-ruhiyyəsini daha da artırıb.

Sonda tədbir iştirakçılarına Heydər Əliyev Fondunun hədiyyələri təqdim olunub.

# Azərbaycan və Ukrayna veteranları arasında əməkdaşlıq əlaqələri genişlənir

*Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynada səfərdə olub.*

Səfər çərçivəsində Cəlil Xəlilov Ukrayna Müharibə Veteranları Cəmiyyətinin rəhbər işçiləri ilə görüşüb.



Görüşdə Ukraynanın sabiq müdafiə naziri və Azərbaycan Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşeliyinin nümayəndəsi də iştirak ediblər.

Ukrayna Müharibə Veteranları Cəmiyyəti sədrinin birinci müavini, ehtiyatda olan polkovnik Viktor Şamray təmsil etdiyi təşkilat haqqında ətraflı məlumat verib. O, hər iki ölkənin müvafiq qurumları arasında əlaqələrin daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıb və Cəlil Xəlilova medal təqdim edib.

Cəlil Xəlilov Azərbaycan Respublikası Veteranlar Təşkilatının fəaliyyəti barədə görüş iştirakçılarına məlumat verib, qurumun ölkə daxilində və beynəlxalq səviyyədə gördüyü işlərdən söz açıb. Bildirib ki, dövlət tərəfindən maliyyələşdirilən təşkilat Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tam qayğısı ilə əhatə olunub. Bu gün Azərbaycanda veteranların sosial problemləri dərhal həll edilir, onlara yüksək diqqət və qayğı göstərilir.



Cəlil Xəlilov Azərbaycan və Ukrayna xalqları arasında dostluq münasibətlərinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə bir sıra şəxslərə Respublika Veteranlar Təşkilatının medallarını təqdim edib.

Ukrayna Baş nazirinin sabiq müavini, keçmiş müdafiə naziri Valeri Şmarov ulu öndər Heydər Əliyevlə bağlı xoş xatirələrini danışıb.

Görüşdə hər iki qurum arasında əlaqələrin genişləndirilməsinin, qarşılıqlı səfərlərin təşkilinin, beynəlxalq tədbirlər çərçivəsində görüşlərin keçirilməsinin vacibliyi qeyd edilib.



# Veteranlar Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününü qeyd etdilər

*İyunun 23-də Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 98-ci ildönümünə həsr edilən tədbir keçirilib.*






Əvvəlcə tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev Azərbaycan Silahlı Qüvvələrinin yaradılması tarixindən danışıb. Bildirib ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin qərarına əsasən 1918-ci il iyunun 26-da birinci nizami hərbi hissə - əlahiddə Azərbaycan korpusu, avqustun 1-də isə Xosrov bəy Sultanovun rəhbərliyi ilə Hərbi Nazirlik yaradılıb. Azərbaycanın müstəqilliyini gözü götürməyən istilaçılardan ölkəmizin müdafiə edilməsində Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar və başqalarının böyük xidmətləri olub.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev hələ sovet dövründə milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirib. Bu məqsədə çatmaqda 1972-ci ildə açılmış Cəmşid Naxçıvanski adına hərbi liseyinin böyük rolu olub. Məktəbin məzunları erməni təcavüzkarlarına qarşı mübarizədə, habelə müasir Azərbaycanın Silahlı Qüvvələrinin yaradılmasında iştirak ediblər.

Qeyd edilib ki, Azərbaycan rəhbərliyinin hərbi sahənin inkişafına daim diqqət göstərməsi nəticəsində ölkəmiz regionda müstəqilliyin keşiyində duran və dövlətimizin pozulmuş sərhədlərini bərpa etməyə hər zaman hazır olan qüdrətli orduya malikdir.

D.Rzayev tədbir iştirakçılarını Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə təbrik edib. Bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 may tarixli Fərmanına əsasən iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü qeyd edilir. Silahlı Qüvvələrin yaradılmasının ildönümü azərbaycanlı vətənpərvərlər üçün mühüm hadisədir.



Sonra Böyük Vətən müharibəsində Qələbə münasibətilə Azərbaycan veteranlarına "Rusiya Veteranları İttifaqı" Ümumrusiya Veteranları İctimai Təşkilatının xatirə nişanları təqdim edilib.

D.Rzayev Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin nümayəndəsinə Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının "Həzi Aslanov" medalını təqdim edib. Həmçinin Böyük Vətən müharibəsi, Qarabağ müharibəsi veteranlarına və Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvlərinə "Səməd Mehmandarov", "Əliağa Şıxlinski" medalları təqdim edilib.

# Qəhrəmanlar heç vaxt unudulmur

01.07.2016-cı il tarixdə 11 saylı orta məktəbin müəllimləri və Sumaqayıt şəhər Veteranlar Təşkilatının nümayəndələri bir qrup müharibə, əmək və Qarabağ veteranları ilə birlikdə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğulduğu Biləsuvar rayonunun Əliabad kəndinə getdik. Gedirdik ki, Mübarizin anası Şamama xanım və atası Ağakərim böylə görüşüb onlara təskinlik verək.



Ana müqəddəsdir və bu müqəddəsliyinə görə də vətənə "Ana Vətən" deyirik. Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən ugrunda , onun azadlığı, istiqlaliyyəti yolunda canını qurban vermiş, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlarımız heç vaxt unudulmur, onlar öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar. Bizi Biləsuvarda İcra nümayəndəsi Xəyalə xanım qarşıladı, Ulu Öndər Heydər Əliyevi yad edərək onun abidəsi önünə güllər qoyduq və maşına əyləşib Mübarizin doğulduğu Əliabad kəndinə yollandıq. Evlərində bizi atası və anası qarşıladılar. Gəlişimizin məqsədini dedik və onlar Mübariz haqqında bizə xeyli söhbət etdi.



O, qeyd etdi ki, onun 3 oğlu var və sonuncu oğlunun adını Mübariz qoyub.

Mübariz həqiqətən də həyatda mübariz idi. O, əsgəri xidmətini başa vurmuşdu lakin 2-ci dəfə bizim razılığımız olmadan könüllü ön cəbhəyə getdi. Elə bil ki, Mübarizi tale sanki Vətən keşikçisi kimi həm çətin, həm də şərəfli bir xidmətə hazırlamışdı. O, xalqa, vətənə baglı olan bir insan idi. Zaman-zaman xalqımızın içərisindən çıxan belə oğullarla fəxr edirik.

Sonra Mübarizin ev muzeyinə getdik, sanki əsrlərdən qalan muzey idi. Biz orada olan ekspanatlara baxdıqca gah ağladıq, gah da qürur hissi keçirdik. Onun ruhuna dualar oxuyandan sonra təhsil aldığı məktəbə yollandıq. Məktəbin həyatında bizi direktor Bəsirə xanım qarşıladı. İki mərtəbəli məktəbin foyesində və sinif otaqlarında səliqə-səhman hökm sürürdü. Məktəblə tanışlıqdan sonra Bəsirə müəllimə ilə birlikdə Mübariz İbrahimovun oxuduğu sinif otağına getdik və onun oturduğu partada əyləşərək ona dərs deyən müəllimlərin Mübariz haqqında dedikləri xoş sözlərə diqqətlə qulaq asdıq. Bəsirə müəllimə onun qiymət cədvəlini, şəxsi işini, ona aid olan albomda uşaqlıq şəkillərini bizə göstərərək çox kövrəldi.

Dünyanın ən qədim və mədəni xalqlarından olan Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Neçə-neçə ərənlər yetişdirib bu müqəddəs torpaq... Bu torpaq Babəklərin, Cavanşirlərin, Koroğluların vətənidir. Azərbaycanı dünyaya tanıtdıran Həzi Aslanov, Mehdi Hüsenzadə, İsrafil Məmmədov, Əliağa Şıxlinski kimi qəhrəmanlarımızla da fəxr edirik.

**Leyla Qasımzadə**
**Sumqayıt şəhər Veteranlar Təşkilatının sədri**

AZƏRBAYCAN VETERANI

5

10 (62) 14 iyul 2016-cı il

# ŞƏRƏFLİ YOLUN YOLÇUSU



Dünən, bu gün və sabah... Biz hamımız dünənimizlə qururlanır, bu günümüzlə yaşayır, sabah nə edəcəyimizi düşünürük. Xəyallara çevrilən dünənimiz bizi alnıaçıq - üzüağ edibsə qəlbimiz fərəh hissilə döyünür, tanış - bilişin, dost - aşnanın üzünə gülə - gülə baxır, bu günkü qələbəmizlə fəxr edir, təxəyyülümüzdə sabahkı nailiyyətlərimizi canlandiririq. Belələrindən biri də hamımızın sevimlisi Mustafa Əhmədovdur. Böyük Vətən Müharibəsi başlayanda onun on yaşı vardı. Atası Yusif Əhmədov düşmənlə üz - üzə vuruşurdu. Anası və bacıları Özündən böyük olsalar da, müharibənin yaratdığı problemlərin həllində aciz idilər. Qardaşları isə özündən kiçik idilər. Müharibənin yaratdığı aclıq, səfalət, ehtiyac, hamı kimi, onlarin da qapılarını döyür və onun uşaqlığını əlindən alıb, ona böyüklərə məxsus olan ailə qayğıkeşliyini bəxş etmişdi. Balaca Mustafa bütün gücünü səfərbər edib bu çətinliyin öhdəsindən gəlməyi bacardı və öz həyat yolunu müəyyənləşdirdi. Orta məktəbi bitirib Şəki Toxuculuq Texnikumuna daxil oldu, Texnik - texnolok ixtisasına yiyələndi. Orta ixtisas təhsili ilə kifayətlənməyib Azərbaycan kənd Təsərrüfatı inistitunun İqtisadiyyat fakültəsində təhsilini davam etdirdi. İqtisadçı adını qazandı. 1949 - 1952 - ci illərdə hərbi xidməti başa vurub qayıtdıqdan sonra əmək fəaliyyətinə başladı. Mustafa Əhmədovun hərbi xidmətdə olduğu illəri də nəzərə alsaq, nə az, nə çox, düz, əlli dörd illik əmək fəaliyyəti, öz ardıcıllığı ilə diqqəti cəlb edir. Əlli dörd il. Deyilişi nə qədər asan səslənirsə də, illərin arxasından görünən insan həyatında baş verən hadisələrin bu illərin qoynunda gizləndiyini düşünəndə əlli dörd ilin nələr danışacağını təxəyyül süzgəcindən keçirmək olmur. Mustafa Əhmədovun həyat yolu ilə tanış olmaq üçün onunla söhbət etdikdə qısa, konkret fikirlər söyləyir, ən çox başqalarından danışır, üz - gözündən iftixar hissi duyulurdu. Buna haqqı da vardı...

Onun həyat yolunu vərəqlədikdə aydın olur ki, Mustafa müəllim ictimai işlərdə də öz fəallığı ilə seçilmişdir. Şəki Şəhər Partiya Komitəsinin plenum və büro üzvi olmuş, 1955-1990-cı illərdə Şəki Rayon Sovetinin deputatı seçilmişdir. Uzun illər isə, o, Respublika Qayğı Cəmiyyətinin Təftiş Komissiyasında fəallığı ilə tanınmışdır. Mustafa Əhmədovun başçılıq etdiyi müəssisə və təşkilatların adı həmişə qabaqcıllar sırasında çəkilmiş, kollektivin əməyi yüksək qiymətləndirilmişdir. Fəxri Fərmanlar, diplomlar, SSRİ Maaliyyə Nazirliyinin Keçici Qırmızı Bayrağı və pul mükafatı və s. Mustafa Əhmədov özü isə, ayrıca olaraq, Şərəf Nişanı Ordeni və Əməkdə Fərqlənməyə Görə medalı ilə təltif edilmişdir. Bütün bunlar Mustafa Əhmədovun həyat yolunun güzgüsüdür. Bu güzgüdən baxdıqda şərəfli bir ömrün əldə etdiyi nailiyyətlər sıraya düzülüb kino lenti kimi göz önündən keçir və təxəyyülümüzdə, haqlı olaraq, belə bir sual doğurur. Görəsən necə olub ki, Mustafa müəllim hər an axtarılıb, vəzifədən - vəzifəyə keçirilib, ən vacib problemlərin həlli ona etibar edilib. Bu sualın cavabını tapmaq üçün onun əmək fəaliyyətinin, həqiqətdə olan, lakin çox vaxt görünməyən xüsusiyyətlərini araşdırmalı olduq. Məlum oldu ki, o, harada, hansı vəzifədə, kimlərlə işləməsindən asılı olmayaraq, bütün məqamlarda sevilən, seçilən bir şəxsiyyət kimi formalaşmağı bacarıb. Kollektivin əməyini qiymətləndirər "Biz etmişik" deyərdi. Və ya, hər hansı bir problemi həll etmək, müəyyən bir işi təcili başa çatdırmaq lazımdırsa, əmr edib kənarda dayanmaz, özü qabağa düşər, gedək işimizin arxasınca deyərdi, Və yaxud, tabeliyində olan işçilərdən biri hər hansı bir səhvə yol verərdisə onu kollektivin içində danlamaz, təklikdə danışar, səhvin əmələ gəlmə səbəblərini araşdırar, işçini doğru, düzgün yola dəvət edərdi. Başqa sözlə desək, kollektivdə sağlam ruh, sağlam əhval ruhiyə, sağlam fikir formalaşması üçün bütün lazımı tədbirləri həyata keçirərdi. Məhz, bu xüsusiyyətlərin nəticəsidir ki, o, hamı tərəfindən sevilir, hörmətlə qarşılanır, başqalarına nümunə olurdu. Təsadüfü deyil ki, 2003-2008-ci illərdə - Prezident seçkiləri ərəfəsində, Mustafa Əhmədova ən məsul bir iş-Şəki Rayon Seçki Komissiyasının Sədri vəzifəsi etibar edilmişdir. O, bu vəzifənin də öhdəsindən bacarıqla gəlmiş, bütün qüvvəsini bu sahəyə yönəldərək seçkilərin qanunu və qərəzsiz keçirilməsinə nail olmuşdur Mustafa Əhmədov hazırda təqaütdədir. Ömrünün ən müdrik çağlarını yaşayır. O, yenə də fəaliyyətdədir. İctimai vəzifələr daşıyır. Mustafa Əhmədov Şəki Şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri, Ağsaqqallar Şurasının üzvüdür. Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi üçün ali, orta ixtisas və orta məktəblərdə, xüsusilə, şəhərimizdəki hərbi hissələrdə müharibə veteranları ilə gənclərin görüşlərini təşkil edir, bütün bacarığını Veteranlar Təşkilatının tərtib və təsdiq etdiyi iş planının həyata keçirilməsinə yönəldir. Onun təşəbbüsü ilə şəhərimizdə Veteranların Asudə Vaxt Mərkəzi yaradılmış, Şəhər Veteranlar Təşkilatı üçün ayrılmış otaq əsaslı təmir edilmiş, lazımı avadanlıqlar alınmışdır. Bu yenilikləri görən veteranlar ona öz razılıqlarını bildirib, təşəkkür etdikdə Mustafa Əhmədov deyir: - "Bütün bunlar mənim yox, Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun veteranlara göstərdiyi yüksək qayğının nəticəsidir. Çoxunuz şahidsiniz ki, bütün məsələlərdə veteranlar həmişə diqqət mərkəzindədir. Elxan Usubovun veteranlarla vaxtaşırı görüşü, onlarla bir süfrə arxasında əyləşib söhbətləşməsi, veteranların hər bayram mükafatlandırılması, elə, bu yaxınlarda, Qələbənin 71-ci ildönümü münasibətilə Böyük Vətən müharibəsi iştirakçıları ilə, yenə də, süfrə arxasında görüşü və onların mükafatlandırılması faktları Elxan Usubovun veteranlara göstərdiyi yüksək qayğının təzahürüdür. Bu ənənə daim davam edir". Mustafa Əhmədov isə yoruldum demir, öz fəaliyyətini daha da genişləndirir. Biz də, öz növbəmizdə, müdrik yaşlı, yorulmaq bilməyən Mustafa Əhmədova yüz yaşa deyək və ona həmişə gənclik ruhu ilə çalışmağı arzulayırıq.

**Şahid Məmmədkərimov**
**Şəki Şəhər Veteranlar Təşkilatının sədr müavini**

# Qabaqcıl təhsil işçisi

Hüseynov Heybət Əli oğlu 1934-cü ildə Astara şəhərində fəhlə ailəsində anadan olmuşdur. Atası Hüseynov Əli Ağababa oğlu Böyük Vətən müharibəsində həlak olmuşdur. 1941-ci ildə Astara şəhər Mirzə Ələkbər Sabir adına orta məktəbin birinci sinifinə daxil olmuş və həmin məktəbin onuncu sinfini bitirmişdir. 1951 -ci ildən Astara rayon pionerler evində işləmişdir. Daha sonra V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitunun Coğrafiya fakültəsinə daxil olmuşdur. Hüseynov Heybət həyatı boyunca daim fəaliyyətdə olmuşdur: Astara şəhər fəhlə-gənclər orta məktəbində dərs hissə müdiri, Astara şəhər M.Ə. Sabir adına 1 saylı orta məktəbində coğrafiya müəllimi, Astara rayon Xalq Maarifi şöbəsində Metodkabinetində metodist, Astara Şəhər M.Ə. Sabir adına 1 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini, Azərbaycan Kommunist Partiyası Astara Rayon Komitəsində partiya kabinetinin müdiri, şəhər 1 saylı, internat məktəbi və 5 saylı məktəblərdə direktor kimi vəzifələrdə işləmişdir.



